Xalq qəzeti.- 2022.- 7 yanvar.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 415** **Bakı şəhəri, 28 dekabr 2021-ci il**

**“Azərbaycan Respublikasının ümumi istifadədə olan avtomobil yolları ilə iriqabaritli və ağırçəkili nəqliyyat vasitələrinin hərəkət etməsi və onların hərəkətinə xüsusi icazənin verilməsi Qaydası”nın, “Azərbaycan Respublikasının ümumi istifadədə olan avtomobil yolları ilə iriqabaritli və ağırçəkili avtonəqliyyat vasitələrinin hərəkət etməsinə görə ödənişlərin dərəcələri”nin və “Azərbaycan Respublikasının ümumi istifadədə olan avtomobil yolları ilə hərəkət edən avtonəqliyyat vasitələrinin icazə verilən qabarit və çəki parametrləri”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 7 iyul tarixli 104 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 7 iyul tarixli 104 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 7, maddə 601; 2014, № 4, maddə 454; 2016, № 3, maddə 591; 2017, № 1, maddə 129; 2018, № 1, maddə 139; 2019, № 1, maddə 161) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ümumi istifadədə olan avtomobil yolları ilə hərəkət edən avtonəqliyyat vasitələrinin icazə verilən qabarit və çəki parametrləri”ndə aşağıdakı dəyişikliklər edilsin:

3-cü hissənin 2 nömrəli cədvəli üzrə:

1.1. 1-ci hissənin ikinci abzasında “24” rəqəmləri “25” rəqəmləri ilə və üçüncü abzasında “25” rəqəmləri “26” rəqəmləri ilə əvəz edilsin;

1.2. 3.1-ci bəndin üçüncü, dördüncü və beşinci abzaslarında “38” rəqəmləri müvafiq olaraq “40” rəqəmləri ilə əvəz edilsin;

1.3. 3.1-ci bəndə aşağıdakı məzmunda altıncı abzas əlavə edilsin:

“üçoxlu dartıcı ikioxlu və ya üçoxlu yarımqoşqu ilə uzunluğu 12,192 m, eni 2,438 m, hündürlüyü 2,438 m və ya 2,591 m, yaxud 2,896 m olan konteynerin (40 futluq konteyner) daşınması zamanı 44 t”.

2.4. 1-ci bənd aşağıdakı redaksiyada verilsin:

“4.1. Nəqliyyat vasitəsinin oxuna düşən yükün icazə verilən kütləsi (çəkisi) 3 nömrəli cədvəl ilə müəyyən edilmiş hədləri aşmamalıdır:

*3 nömrəli cədvəl*

| Oxun növü və oxlar arasındakı məsafə | 10 ton hesabi yükə hesablanmış yüngülləşdirilmiş və keçid tipli yol geyimlərində | 11,5 ton hesabi yükə hesablanmış əsaslı tip yol geyimlərində |
|---|---|---|
| **İkioxlu nəqliyyat vasitələrində bir ox üçün** | | |
| Aparan | 10 t | 11,5 t |
| Aparılan | 10 t | 11,5 t |
| **Cütlənmiş oxlar, ikimeyilli (bir oxun hər tərəfində iki təkər olduqda) təkərlərə malik qoşqular və ya yarımqoşqular üçün ox kütlələrinin cəmi oxlararası aşağıdakı məsafələrə uyğun olaraq aşağıdakı göstəriciləri aşmamalıdır:** | | |
| 0,5 m-dən 1 m-ə qədər | 12 t | 12,5 t |
| 1 m-dən 1,3 m-ə qədər | 14 t | 16 t |
| 1,3 m-dən 1,8 m-ə qədər | 16 t | 18 t |
| 1,8 m-ə bərabər və ya çox | 18 t | 20 t |
| **Cütlənmiş oxlar, birmeyilli (bir oxun hər tərəfində bir təkər olduqda) təkərlərə malik qoşqular və ya yarımqoşqular üçün ox kütlələrinin cəmi oxlararası aşağıdakı məsafələrə uyğun olaraq aşağıdakı göstəriciləri aşmamalıdır**: | | |
| 0,5 m-dən 1 m-ə qədər | 11 t | 11,5 t |
| 1 m-dən 1,3 m-ə qədər | 13 t | 14 t |
| 1,3 m-dən 1,8 m-ə qədər | 15 t | 17 t |
| 1,8 m-ə bərabər və ya çox | 17 t | 18 t |
| **Üçoxlu oxlar, ikimeyilli təkərlərə malik qoşqular və ya yarımqoşqular üçün ox kütlələrinin cəmi oxlararası aşağıdakı məsafələrə uyğun olaraq aşağıdakı göstəriciləri aşmamalıdır**: | | |
| 0,5 m-dən 1 m-ə qədər | 16,5 t | 18 t |
| 1 m-dən 1,3 m-ə qədər | 19,5 t | 21 t |
| 1,3 m-dən 1,8 m-ə qədər | 22,5 t | 24 t |
| 1,8 m-ə bərabər və ya çox | 25,5 t | 26 t |
| **Üçoxlu oxlar, birmeyilli təkərlərə malik qoşqular və ya yarımqoşqular üçün ox kütlələrinin cəmi oxlararası aşağıdakı məsafələrə uyğun olaraq aşağıdakı göstəriciləri aşmamalıdır**: | | |
| 0,5 m-dən 1 m-ə qədər | 15 t | 17 t |
| 1 m-dən 1,3 m-ə qədər | 18,3 t | 20 t |
| 1,3 m-dən 1,8 m-ə qədər | 21 t | 23,5 t |
| 1,8 m-ə bərabər və ya çox | 24 t | 25 t |
| **İkimeyilli təkərləri olan yük avtomobili və ya avtobusun cütlənmiş aparıcı ox kütlələrinin cəmi aşağıdakı məsafələrə uyğun olaraq aşağıdakı göstəriciləri aşmamalıdır:** | | |
| 0,5 m-dən 1 m-ə qədər | 12 t | 14 t |
| 1 m-dən 1,3 m-ə qədər | 14 t | 16 t |
| 1,3 m-dən 1,8 m-ə qədər, | 16 t | 18 t |
| eləcə də hava asqısı və ya ekvivalenti ilə bərkidiləndə | 17 t | 19 t |
| 1,8 m-ə bərabər və ya çox, | 18 t | 20 t |
| eləcə də hava asqısı və ya ekvivalenti ilə bərkidiləndə | 19 t | 20 t |
| Birmeyilli təkərləri olan yük avtomobili və ya avtobusun cütlənmiş aparıcı oxları üçün ox kütlələrinin cəmi aşağıdakı məsafələrə uyğun olaraq aşağıdakı göstəriciləri aşmamalıdır: | | |
| 0,5 m-dən 1 m-ə qədər | 11 t | 12 t |
| 1 m-dən 1,3 m-ə qədər | 13 t | 14 t |
| 1,3 m-dən 1,8 m-ə qədər, | 15 t | 17 t |
| eləcə də hava asqısı və ya ekvivalenti ilə bərkidiləndə | 16 t | 18 t |
| 1,8 m-ə bərabər və ya çox, | 17 t | 18 t |
| eləcə də hava asqısı və ya ekvivalenti ilə bərkidiləndə | 18 t | 18 t |

”

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***